*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 23 (613)

15 dekabr 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 18 il keçdi.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın Dövlət Himni səsləndirilib.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

x x x



Azərbaycan tarix boyu bəşəriyyətə böyük dühalar bəxş edib. Xalqımızın Ulu Öndəri Heydər Əliyev bu şəxsiyyətlərin sırasında ən uca zirvələrdən birində qərar tutub. Uca zirvələr uzaqdan daha aydın göründüyü kimi, Heydər Əliyev şəxsiyyətinin əzəməti və böyüklüyü də illər ötdükcə daha dərindən dərk olunur. Buna mütənasib olaraq xalqın öz dahi oğluna məhəbbət və ehtiramı da artır.

Ümummilli Lider Heydər Əliyevin vəfatından ötən 18 ildə Azərbaycan tanınmaz dərəcədə dəyişib. Ölkəmizin dinamik inkişafı hər bir sahədə, hər bir bölgədə, xüsusən ildən-ilə gözəlləşən Bakının simasında aydın görünür. Azərbaycanın təşəbbüsü və bilavasitə iştirakı ilə qlobal layihələr həyata keçirilib, vaxtilə xəyal hesab edilən transmilli energetika və nəqliyyat layihələri uğurla reallaşdırılıb. TANAP və TAP boru kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub nəqliyyat dəhlizi... Zamanın dəyişə bilmədiyi yeganə reallıq xalqın öz böyük oğluna tükənməz məhəbbətidir. Vətəni və xalqı qarşısında misilsiz xidmətlər göstərmiş Heydər Əliyevin ideyaları yaşayır, yollarımızı daim işıqlandırır. Bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkələr sırasında yer alıb, azsaylı kosmik ailənin üzvünə çevrilib. Səsimiz beynəlxalq kürsülərdən daha gur eşidilir, bayrağımız uca zirvələrdə dalğalanır. Bu möhtəşəm, dünyanı heyran qoyan uğurların əsasında Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti dayanır.

Ulu Öndərin anım günündə bu dahi şəxsiyyətin xilaskarlıq missiyası xüsusi minnətdarlıqla xatırlanır. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş xalq ötüb keçənləri unutmayıb və xilasına görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə bəslənən tükənməz sevgi və ehtiramdan xəbər verir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin arzusunu, vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. İldən-ilə güc toplayan Azərbaycan, onun rəşadətli ordusu düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın döyünən ürəyi olan Şuşada qürurla dalğalanmağa başladı.

Ali Baş Komandan İlham Əliyevin 18 illik prezidentliyi dövründə qurulmuş Azərbaycan Ordusu bu gün dünyanın 50 ən güclü ordusu sırasında yer alır, onun arsenalında ən müasir silahlar var. Öz liderinə, Ali Baş Komandanına inanan və güvənən bu ordu, igid Azərbaycan əsgəri öz qanı, canı bahasına 30 illik işğala son qoydu.

Bu gün Ulu Öndərimiz Heydər Əliyevin ruhu şaddır.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb.**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB



Dekabrın 3-də Daxili İşlər Nazirliyində videokonfrans formatında Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov Kollegiyanın müzakirəsinə çıxarılan məsələlərin kriminogen duruma təsiri, vətəndaş məmnunluğunun təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi baxımından aktual olduğunu bildirib.

Gündəlikdəki məsələlər üzrə nazir müavini - Baş Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis general-leytenantı Fazil Quliyev, Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalov və Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi, polis polkovniki Gündüz Sadıxov məruzə ilə çıxış ediblər.





İclasa yekun vuran daxili işlər naziri Vilayət Eyvazov son üç ilə yaxın bir müddətdə keçirilmiş on Kollegiya iclasından hər birinin insanların həyatının, sağlamlığının, hüquq və azadlıqlarının, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin və mülkiyyətinin hüquqazidd əməllərdən qorunması sahəsində polisin fəaliyyətinin təkmilləşdirilməsinə, düzgün və məqsədyönlü istiqamətləndirilməsinə, ən başlıcası, vətəndaş məmnunluğunun təmin olunmasına xidmət etdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, vətəndaşların müraciətlərinə baxılması, problemlərinin həlli, istintaq və təhqiqat prosesində qanunçuluğa riayət edilməsi, cinayət və digər hüquqpozmalar nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi sahəsində müvafiq Kollegiya qərarları əsasında həyata keçirilmiş tədbirlər daha məqsədyönlü davam etdirilməlidir. Hər bir şəxsin qanunla qorunan hüquq və azadlıqları daim etibarlı qorunmalı, vətəndaşların əsassız saxlanılması, incidilməsi, ümumən onların narazılığını doğuran bütün neqativ hallar aradan qaldırılmalıdır.

Çıxışında polisin bayır xidmətinin aparılmasına da toxunan nazir xüsusən post-patrul və yol-patrul qurumlarının işinin müasir tələblərə uyğun təkmilləşdirilməsinin, şəxsi heyətin polis etikasını dərindən mənimsəməsi üçün davamlı treninqlərin keçirilməsinin vacibliyini də qeyd edib. Asayişin qorunmasında, vətəndaşların təhlükəsizliyinin təmin edilməsində, yol hərəkətinə nəzarətin həyata keçirilməsində, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq təcrübədə özünü doğrultmuş metodlara üstünlük verilməsini tələb edib, eyni zamanda nazirliyin aidiyyəti struktur qurumlarının rəhbərlərinə fəaliyyətdə texnoloji yeniliklərin geniş tətbiqi ilə bağlı tapşırıqlarını çatdırıb.



Ölkə Prezidentinin qarşıya qoyduğu əsas vəzifələrdən birinin vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu bir daha xatırladan nazir V.Eyvazov əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi, arxayınlığa yol verilməməsi, əməliyyat-xidməti fəaliyyətin ayrı-ayrı istiqamətlərində mövcud olan çatışmazlıqların tam aradan qaldırılması, icrası nəzərdə tutulan məsələlərin həllinin ilin sonunadək təmin edilməsi üçün konkret göstərişlər verib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 13.12.2021 12:45 Page 1



# DAXİLİ İŞLƏR NAZİRİ PAKİSTANLI NAZİRİ QƏBUL EDİB



Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov dekabrın 1-də ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının müdafiə istehsalatı naziri, Azərbaycan-Pakistan Birgə Komissiyasının həmsədri xanım Zobaida Cəlalı qəbul edib.

Qonağı salamlayan nazir strateji müttəfiqlər olan iki dost dövlət arasında əlaqələrin zəngin tarixə və dərin köklərə malik olduğunu, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu münasibətlərin möhkəm təməllər üzərində qurulmasına hər zaman xüsusi önəm verdiklərini məmnunluqla qeyd edib.

General-polkovnik Vilayət Eyvazov qonağa ölkəmizdəki mövcud kriminogen durum, həyata keçirilən islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilən nəticələr barədə qısa məlumat verib.

Səmimi qəbula, ətraflı məlumata görə təşəkkür edən xanım Zobaida Cəlal dövlətlərimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin həqiqətən dərin köklərə malik olduğunu önə çəkərək, xüsusilə son illər ərzində bütün sahələrdə əlaqələrin daha sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlik və əmin-amanlıqdan məmnunluğunu bildirib.

Səmimilik və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

**DİN-in Mətbuat xidməti**

# BAŞ İDARƏDƏ QƏBUL

Noyabrın 30-da daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Türkiyə Respublikasının "Nurol Teknoloji Sanayi və Madencilik Ticaret Anonim Şirkəti"nin baş direktoru Selim Baybaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Daxili İşlər Nazirliyinin Maddi-texniki təminat Baş İdarəsinin və Daxili Qoşunların Baş İdarəsinin Maddi-texniki təminat İdarəsinin vəzifəli şəxsləri iştirak ediblər.

Qonaqları səmimi salamlayan general-leytenant Ş.Məmmədov qardaş Türkiyə Respublikasının hərbi və hüquq-mühafizə qüvvələrinin istifadəsi üçün lazım olan müxtəlif növdə silah və sursatların istehsalı sahəsində böyük uğurlar əldə etdiyini ifadə edərək, müvafiq sahədə qarşılıqlı əlaqələrin qurulmasına böyük marağın olduğunu bildirib. O, Daxili Qoşunların şəxsi heyətinin müasir silah-sursat, texnika və xüsusi vasitələrlə təmin olunması istiqamətində mühüm işlər görüldüyünü vurğulayıb.



Nümayəndə heyətinin rəhbəri Selim Baybaş da, öz növbəsində, səmimi qəbul üçün təşəkkürünü bildirərək, "Nurol Teknoloji Sanayi və Madencilik Ticaret Anonim Şirkəti"nin baş direktoru olaraq şirkətin yaranması, qurumun əməkdaşlıq etdiyi ölkələr, onun müəssisələrində hava, quru qüvvələri, eləcə də hüquq-mühafizə qurumları üçün istehsal olunan keramik zirehlər barədə ətraflı məlumat verib. O, eyni zamanda, Azərbaycan Respublikasının mühüm güc strukturu kimi Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə də müvafiq istiqamətdə əməkdaşlığın qurulması üçün böyük imkanların olduğunu sözlərinə əlavə edib.

Şirkətin fəaliyyəti barədə hərtərəfli məlumata görə nümayəndə heyətinə minnətdarlığını ifadə edən daxili qoşunların komandanı Türkiyə Respublikasının digər hərbi sənaye şirkətlərindən alınmış hərbi əmlaklardan, texnikadan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında istifadə olunduğunu, zərurət üzrə "Nurol Teknoloji Sanayi və Madencilik Ticaret Anonim Şirkəti" ilə faydalı əlaqələrin qurulacağını söyləyib.

Görüş xoş işgüzar şəraitdə keçib və sonda xatirə şəkli çəkdirilib.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

# XÜSUSİ TƏYİNATLI BÖLMƏNİN FƏALİYYƏTİ QƏNAƏTBƏXŞDİR

17071 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun "Canavar" şərti adını daşıyan xüsusi təyinatlı qrupu nizam-intizamı, nümunəvi xidməti və yüksək döyüş hazırlığı ilə fərqlənən bölmədir.



İlin bütün fəsillərində, müxtəlif iqlimə və relyefə məxsus ərazilərdə fəaliyyət göstərmək qabiliyyətinə malik olan qrupun təlim proqramları xüsusi təyinatlı dəstənin təlim proqramına uyğundur. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlirlər.



Tabor komandiri polkovnik-leytenant Bəxtiyar Behbudov xüsusi təyinatlı qrupun hazırlığını yüksək qiymətləndirərək, onların döyüş tapşırığını yerinə yetirməyə hər zaman hazır olduqlarını diqqətə çatdırdı: "Xüsusi təyinatlılarla keçirilən məşğələlər zamanı onların hərbi bilik və bacarıqlarını artırmalarına xüsusi fikir verilir. Əsas diqqətimizi atəş və fiziki hazırlıq məşğələlərinə, həmçinin, silahlı cinayətkarların axtarılması və zərərsizləşdirilməsi üzrə praktiki fəaliyyətə yönəldirik. Bundan əlavə, şəxsi heyətin hərbi biliklərinin artırılması məqsədilə digər məşğələlər də önəmlidir. Belə ki, hər bir xüsusi təyinatlının müxtəlif miqyaslı xəritələrdən, kompas və GPRS qurğusundan fərdi qaydada sərbəst istifadə edə bilməsi, eləcə də mühəndis hazırlığı üzrə müvafiq biliklərə malik olması vacib amillərdəndir". Bu amillərlə yanaşı, hər bir xüsusi təyinatlıda öz gücünə inamın formalaşması vacibdir. Bir xüsusi təyinatlını yetişdirmək üçün uzun zaman gərəkdir. Onların döyüş təlimi və xüsusi hazırlıqları prosesində real döyüş şəraitinin xüsusiyyətləri nəzərə alınmalıdır".

Taborun xüsusi təyinatlı qrupunun yüksək döyüş hazırlığının qorunub saxlanılması, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılması məhz xüsusi təyinatlıların möhkəm hərbi intizamına söykənir. Bu baxımdan, qrupun qarşısına qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi xüsusi təyinatlıların ahəngdar birgə fəaliyyətindən çox asılıdır.



Xüsusi təyinatlı qrupun Vətən müharibəsində iştirakını diqqətə çəkən tabor komandiri hərbi qulluqçuların döyüş meydanında cəsurluq nümunələri göstərdiklərini xüsusilə vurğuladı. Söylədi ki, ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşlərdə böyük şücaət göstərən xüsusi təyinatlılardan bir nəfər - baş çavuş Seymur Həsənli Şuşa istiqamətində şəhid olub.

Xüsusi təyinatlı qrupun komandiri vəzifəsini müvəqqəti icra edən baş çavuş Xəlil İsayev, öz növbəsində, xüsusi təyinatlı olduğu üçün hər zaman qürur duyduğunu vurğuladı: "Bu çətin, lakin şərəfli yolda yürümək üçün hərbi qulluqçu səbirli, dəyanətli, dözümlü olmalıdır.

Baş çavuş X.İsayevin bir hərbi qulluqçu kimi müsbət keyfiyyətlərə malik olduğunu deyən tabor komandiri polkovnik-leytenant B.Behbudov, həmçinin, qrup komandirinin şəxsi heyətlə keçirdiyi məşğələlərin əsas qayəsinin qrupda hərbi intizamın möhkəmləndirilməsi, hərbi-vətənpərvərlik əqidəsinin aşılanması, döyüş ruhunun yüksəldilməsi, kollektivdə yoldaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsindən ibarət olduğunu bildirdi.

**baş leytenant Nigar Ağayeva**

# ALİ HƏRBİ MƏKTƏB GƏLƏCƏYİN PEŞƏKAR ZABİTLƏRİNİ YETİŞDİRİR

Daxili Qoşunların Ali Hərbi Məktəbi ali xüsusi hərbi təhsilli kadrların hazırlanmasını və zabitlərin ixtisaslarının artırılmasını uğurla həyata keçirir. Burada tədris prosesi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, daxili işlər naziri və daxili qoşunların komandanının əmr və direktivlərinin, eyni zamanda, Avropada tətbiq olunan Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğun təşkil olunur.



Təlim-tədrisin planlaşdırılması zamanı kursantlara Daxili Qoşunların ehtiyaclarına və dövrün tələblərinə uyğun təhsilin verilməsi təmin olunur, qazandıqları bilikləri nə vaxt, harada, necə tətbiq edəcəkləri praktiki olaraq göstərilir, onların savadlı, bacarıqlı hərbi qulluqçu kimi hazırlanmalarına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, Ali Hərbi Məktəbin tədris bölükləri intizamlı, savadlı kursantları ilə hər zaman fərqlənirlər.



Ali Hərbi Məktəbin tədris şöbəsinin rəisi polkovnik Kənan Yüzbaşıyev tədris prosesinin əsas məqsədinin hərbi-nəzəri və hərbi-praktiki biliklərə, intellektual təfəkkürə malik, ali təhsilli zabit kadrları hazırlamaq olduğunu bildirdi. O, təlim-tədrisin peşəkar, savadlı müəllim heyəti tərəfindən aparıldığını diqqətə çatdırdı. Söylədi ki, tədris Ali Hərbi Məktəbin tədris şöbəsinin hazırladığı və məktəb rəisi tərəfindən təsdiq edilmiş məşğələ cədvəlinə əsasən həyata keçirilir: "Fənlər kafedraların professor, peşəkar hərbi və mülki müəllim heyəti, həmçinin, Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Jandarm Baş Komandanlığından təyin edilmiş hərbi qulluqçular tərəfindən tədris olunur".



Kursantlara Daxili Qoşunların Xızı rayonunda yerləşən Təlim Mərkəzində praktiki təlimlər keçirilir.

Həmçinin, məktəbin kursantları gələcək ixtisaslarına uyğun vəzifələrdə xidmət təcrübəsi əldə etmək üçün qoşun təcrübəsinə cəlb olunurlar. Qoşun təcrübəsi Ali Hərbi Məktəbin tədris planına əsasən, Daxili Qoşunların hərbi hissələrində keçirilir. Bu təcrübə kursantların Ali Hərbi Məktəbdə aldıqları nəzəri biliklərin möhkəmləndirilməsində və öz ixtisaslarına uyğun praktiki vərdişlərin qazanılmasında əsas tədris fəaliyyətidir.

Bundan əlavə, kursantların nəzəri biliklərinin möhkəmləndirilməsini, praktiki vərdişlərinin təkmilləşdirilməsini, döyüş şərtlərinə yaxın şəraitlərdə bölmələrin idarə edilməsi üsullarına yiyələnmələrini, həmçinin, təhkim olunmuş silah və texnikanın istifadə qaydalarının mükəmməl mənimsənilməsini təmin etmək məqsədilə praktiki təlimlər keçirilir. Kursantlar təlimlərdə bölmə komandiri, eləcə də təlimin məqsədinə uyğun olaraq digər vəzifələri icra edirlər.

Bütün bunlar onu deməyə əsas verir ki, Ali Hərbi Məktəbdə təlim-tədris prosesi, o cümlədən, kursantların çalışqanlığı gələcəkdə qoşunların peşəkar, Vətənə, dövlətə, dövlətçiliyə, hərbi anda sadiq, hərbi xidmətin çətinliklərinə dözümlü, Azərbaycan Respublikasının qanunlarına və hərbi nizamnamələrinin tələblərinə sözsüz əməl etməyə qadir və bunları şəxsi heyətə aşılamağı bacaran zabit heyətilə komplektləşdirilməsinə zəmin yaradır.

**gizir Ariz Aslanov**

3_Layout 1 13.12.2021 15:13 Page 1



*Şəhidlərimiz*

# SON NƏFƏSİNƏDƏK CƏSUR DÖYÜŞÇÜ KİMİ VURUŞDU...

44 günlük Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsilə başa çatdı. Şəhid olmuş və yaralanmış igid oğullarımızın qanı və canı bahasına torpaqlarımızı işğaldan azad etdik. Qazandığımız bu qələbə hərb tariximizin şanlı səhifəsi olaraq əbədi qalacaq. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Şəhidlərimizin qanı yerdə qalmadı. Həm İkinci, həm də Birinci Qarabağ müharibəsinin şəhidlərinin qanını döyüş meydanında aldıq, o cümlədən, günahsız insanların, Xocalı qurbanlarının, digər mülki şəxslərin intiqamını düşməndən döyüş meydanında aldıq. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq".

Vətən uğrunda canını fəda edən qəhrəman oğullarımızdan biri də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının cəsur hərbi qulluqçusu baş çavuş Sadıqov Ruslan Amiraslan oğludur.

Baş çavuş Ruslan Sadıqov 1987-ci il dekabrın 31-də Şəki rayonunun Təpəcənnət kəndində anadan olub. Amiraslan Sadıqovun və Qaragöz Abdullayevanın böyüdüb tərbiyə etdikləri iki övladdan (Ruslan və İlahə) biri, həmçinin, ailənin ilk nübarı idi...

Ruslan doğulduğu Təpəcənnət kənd orta məktəbində birinci sinfi oxuyub. Ailəsinin sonradan Cəfərabad kəndinə köçməsi səbəbilə təhsilini doqquzuncu sinfədək buradakı tam orta məktəbdə, qalan hissəsini isə Şəki şəhərindəki 5 saylı tam orta məktəbdə davam etdirib. Hələ orta məktəbin beşinci və altıncı siniflərində oxuyarkən idmanın karate növü ilə məşğul olan Ruslan yarışlarda qazandığı uğurlarına görə müxtəlif dərəcəli medallarla təltif edilib. Onun ən böyük arzusu Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbəsi adını qazanmaq olsa da, qəbul oluna bilməyib. İmtahanın nəticələrinə uyğun digər ali təhsil məktəblərində oxumaq şansı olsa da, Ruslan bunların heç birini qəbul etməyərək, hərbi xidmətə getməyə qərar verib.

Müddətli həqiqi hərbi xidmətini 2006-cı ilin yanvar ayından 2007-ci ilin iyul ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışsa da, hərbçi



peşəsinə olan böyük marağı səbəbindən hərbi xidmətə qayıtmağa qərar verib. Beləliklə, 2008-ci ilin yanvar ayında Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Burada müxtəlif vəzifələrdə vətənpərvər hərbi qulluqçu kimi layiqli xidmətilə özünü doğruldub. 2020-ci ilin yanvar ayından etibarən 12318 saylı hərbi hissənin "Yarasa" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin atəş təmінatı qrupunda snayper yarımqrupunun komandiri kimi xidmətini davam etdirən silahdaşımız, hər zaman tabeliyindəki şəxsi heyətə nümunə olmaqla, Vətən qarşısındakı şərəfli borcunu layiqincə yerinə yetirib.

12318 saylı hərbi hissədə "Yarasa" şərti adını daşıyan xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi, Vətən müharibəsi iştirakçısı mayor Elman İslamovun qeyd etdiyi kimi, Ruslan burada qısa müddətdə xidmət etməsinə baxmayaraq, təlabkar yarımqrup komandiri kimi bilik və bacarığı sayəsində böyük rəislərin etimadını və tabeliyində olan şəxsi heyətin hörmətini qazanmağı bacarıb. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidmətilə fərqlənən cəsur hərbi qulluqçumuz "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley, həmçinin, 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib, hərbi hissənin komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

16077 saylı hərbi hissədə "Vaşaq" şərti adını daşıyan xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini, Vətən müharibəsi iştirakçısı mayor Elgün Mirzəliyev bildirdi ki, onun rəhbəri olduğu qrupun tərkibində hərbi əməliyyatlarda fəal iştirak edən baş çavuş R.Sadıqov Şuşa istiqamətində gedən döyüşlərdə əsl qəhrəmanlıq nümunələri göstərib: "Dəstəmiz əvvəlcə Cəbrayıl, Füzuli rayonlarında mövqelərimizin müdafiəsində dayanıb, burada düşmənin diversiya-kəşfiyyat qruplarının qarşısının alınması üzrə döyüş tapşırıqlarını yerinə yetirib.

Oktyabrın 31-də dəstəmizin şəxsi heyəti Hadruta gəlib. Burada ayrı-ayrı qrupların tərkibinə bölünərək, avtomobillərlə Şuşa istiqamətində hərəkətə başladıq. Bir qədər irəlilədikdən sonra kolonumuz düşmən artilleriyasının atəşinə məruz qaldığından, biz ayrı-ayrı qrupların tərkibində piyada Şuşa istiqamətində hərəkəti davam etdirməli olduq. Ruslan mənim komandiri olduğum qrupun tərkibində idi. Onun bir çox müsbət xarakterik xüsusiyyətini nəzərə alaraq deyə bilərəm ki, olduqca mərd, qorxu hissi olmayan, əsl vətənpərvər xüsusi təyinatlı kimi döyüşlərə qatılmışdı. Öz sərrast atəşi ilə düşmənin neçə-neçə hərbi qulluqçusunu məhv etmişdi Ruslan".

**4 noyabr 2020-ci il...** Laçın-Şuşa istiqamətində gedən döyüşlərdən biri Ruslanın son döyüşü oldu. Bu döyüşdə tərkibində Ruslanın da vuruşduğu xüsusi təyinatlılardan ibarət qrupun şəxsi heyəti digər qrupların cəsur döyüşçülərilə birgə ermənilərin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edərək, Laçın-Şuşa yolu üzərindəki yüksəklikdə yerləşən mühüm mövqelərini ələ keçirir. Beləliklə, Şuşaya gedən yol tam olaraq nəzarətə götürülür. Lakin bir müddət sonra düşmənin döyüşçülərimizin yerləşdikləri yüksəkliyi üç tərəfdən müxtəlif növ artilleriyadan və iriçaplı silahlardan şiddətli atəşə tutması nəticəsində baş çavuş R.Sadıqov gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucalır.



Bu döyüşdə, həmçinin, Ruslanla birgə "Yarasa" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin 6 nəfər hərbi qulluqçusu – baş leytenant Təhmasib Mustafayev, gizir Emil İsgəndərov, baş çavuşlar Şahlar Məmmədov, Elvin Abbasov, əsgərlər* Tural Bayramlı və Fərid Vəliyev şəhid olub, 13 nəfər xüsusi təyinatlımız isə yaralanıb.

Baş çavuş R.Sadıqov 2020-ci il noyabrın 10-da Şəki rayonunun Cəfərabad kəndinin qəbiristanlığında dəfn olunub. 11 noyabr 2020-ci il tarixdə Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən tərtib edilən ölüm haqqında şəhadətnamədə cəsur silahdaşımızın 10.11.2020-ci ildə döyüş meydanında, hərbi əməliyyat nəticəsində odlu silah növləri ilə törədilmiş zədələnmələr səbəbindən şəhid olduğu yazılıb.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin, Azərbaycan Respublikası müdafiə nazirinin 28.12.2020-ci il tarixli əmri ilə baş çavuş Sadıqov Ruslan Amiraslan oğlu ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

Məlumat üçün bildirək ki, Ruslanın ailə üzvlərinin və yaxın qohumlarının xatirələri əsasında "News Press" saytının "YouTube" internet portalı vasitəsilə yayımlanan "Xüsusi təyinatlı qrupun snayperi baş çavuş Ruslan Sadıqov" adlı süjetdə şəhid hərbi qulluqçumuzun gənc nəslə nümunə olan həyat və döyüş yolu barədə məlumatlar izləyicilərə təqdim edilib.

Bundan əlavə, Rəfiqə Sadıqovanın müəllifi olduğu, Şəki şəhidlərindən bəhs edən "Əbədi yaşayanlar" adlı kitabda, həmçinin, "Ülfət" qəzetinin 13 mart 2021-ci il tarixli sayında çap olunmuş "Şəhidlik zirvəsinin fatehləri" və "Region mediası" qəzetinin 22 yanvar 2021-ci il tarixli sayında dərc edilmiş "Şəhid Sadıqov Ruslan Amiraslan oğlu" başlıqlı məqalələrdə igid hərbi qulluqçumuzun şərəfli həyat və döyüş yolu geniş işıqlandırılıb.

2011-ci il avqustun 28-də Fidan xanımla ailə həyatı qurmuş şəhid hərbi qulluqçumuzun Nuray, Aylin və Ehsan adlı üç övladı yadigar qalıb.

"Oğul düşmən çəpəridir. Biz övladımızı Vətən uğrunda qurban vermişik və onunla fəxr edir, qürur duyuruq" – deyən şəhid valideynlərinin yeganə arzusu isə igid silahdaşımızın xatirəsinin əbədiləşdirilməsi üçün bir zamanlar təhsil aldığı Cəfərabad kənd tam orta məktəbinə Ruslanın adının verilməsidir.

Sonda onu qeyd etmək istəyirəm ki, Vətən uğrunda canını fəda edən Ruslan kimi cəsur oğullarımızın əziz xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# MUROVDAĞDAN ƏRGÜNƏŞ YÜKSƏKLİYİNƏDƏK DÖYÜŞLƏRİN OD-ALOVUNDAN KEÇDİ...

Şanlı hərbi zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsi haqqında müxtəlif tədqiqatlar aparılır, onun nəticələri ilə bağlı müzakirələr səngimir. Şübhəsiz ki, ölkəmiz işğalçı Ermənistan üzərində möhtəşəm qələbəsi ilə müharibələr tarixinə öz möhürünü vurmuş oldu. Birinci Qarabağ müharibəsində torpaqlarımızın işğalının vurduğu yaraları unutmayan xalqımız şəhidlərin, qazilərin, məcburi köçkünlərin qisasını almağı düşünən, Vətən naminə həyatını fəda etməyə mənəvi cəhətdən hazır olan, özündən əvvəlki nəslin ona ötürdüyü döyüş ruhunu qoruyub saxlayan gənc nəsil yetişdirdi. Bu gənc nəslin nümayəndələri Vətən müharibəsi zamanı döyüş meydanında şəhid və qazi adına ucaldılar.

Qazilər müharibə yaddaşının daşıyıcısıdırlar. Onlardan biri, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sabiq hərbi qulluqçusu, istefada olan gizir Babayev Kamran Məzahir oğlu ilə həmsöhbət oldum. O, Vətən müharibəsi haqqında xatirələrini mənimlə bölüşdü. Qazi ilə hazırda mühafizəçi işlədiyi, qələbəmizin rəmzlərindən biri olan Hərbi Qənimətlər Parkında görüşdüm.

K.Babayev 1990-cı il aprelin 19-da Sumqayıt şəhərində anadan olub. Əslən İsmayıllı rayonundan olan Babayevlər ailəsinin böyük övladıdır, özündən yaşca kiçik Hümmət və Əziz adlı qardaşları var. Bu ailənin başçısı müəllimdir, övladları arasında peşəsinin davamçısı yoxdur, oğulları hərbçidirlər. Kamranın qardaşlarından biri hərbi pilot, digəri isə təyyarə texnikidir. Onlar Hərbi Hava Qüvvələrində hərbi xidmətdədirlər.

Birinci Qarabağ müharibəsində Kamranın qohumu Samir Həbibov döyüşlərdə iştirak edərək sağlamlığını itirib, qazidir.

Qeyd edim ki, Kamran İsmayıllı rayonunun Mollaisaqlı kəndindəki tam orta məktəbin məzunudur. Hələ məktəb illərində hərbçi olmağı arzulayıb. O, yeniyetməlik çağından idmanla maraqlanıb, yüngül atletika və çoxnövçülüklə məşğul olub. Müxtəlif yarışlara qatılaraq qalib yerləri tutmağı bacarıb. Həmçinin, rayonun yığma komandasının tərkibində futbol oynayıb.

2008-ci ilin aprel ayında Kamran müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 25032 və 16073 saylı hərbi hissələrində müddətli həqiqi hərbi xidmət keçib. 2009-cu ilin oktyabr ayının 8-də o,



16073 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Burada xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı, heyət nəfəri vəzifələrinə təyin edilib. 2012-ci ilin may ayının 17-də 25033 saylı hərbi hissəyə keçirilərək xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri vəzifəsinə irəli çəkilib.

2017-ci ilin avqust - 2018-ci ilin yanvar aylarında Kamran Türkiyə Respublikasında ezamiyyətdə olub, qardaş ölkədə Daxili İşlər Nazirliyinin Jandarm Baş Komandanlığının tabeliyindəki Foça Komando məktəbində komando, terrorla mübarizə, dalğıc, bina əməliyyatı kurslarını bitirib.

2018-ci ilin yanvar ayının 6-dan 2019-cu ilin avqust ayının 24-dək 12318 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri, bu tarixdən etibarən isə 99713 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi əməliyyat qrupunda yarımqrup komandiri vəzifələrində xidmətini davam etdirib.

2019-cu ilin sentyabr-oktyabr aylarında yenidən Türkiyəyə göndərilib, Ankara şəhərində Daxili İşlər Nazirliyinin Jandarm Komando Özəl Asayiş Komandanlığının təşkil etdiyi müxtəlif tədris kurslarını keçib.

Ümumilikdə, hərbi xidmət dövründə Kamran "gizir" hərbi rütbəsinədək yüksəlib, həvalə olunan vəzifələrə komandanlığın etimadını doğruldub. Daxili işlər nazirinin 26.06.2018-ci il tarixli müvafiq əmrinə əsasən, o, 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib. 2019-cu ilin noyabr ayının 30-da ona xüsusi təyinatlı üçün şücaət və peşəkarlıq rəmzi sayılan zoğalı beret daşıma hüququ verilib.

Xüsusi təyinatlı dəstənin hərbi qulluqçusu olaraq bir neçə dəfə xüsusi əməliyyata və kütləvi tədbirlərdə təhlükəsizliyin təmin olunmasına cəlb edilib.

Vətən müharibəsi ərəfəsində xüsusi təyinatlıların təlim toplanışında o, iştirak edərək öz peşəkar hazırlığı ilə fərqlənib.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladıqda Kamran ilk gündən erməni işğalçılarına qarşı qətiyyətlə vuruşub. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi və qoşunların ayrı-ayrı hərbi hissələrinin xüsusi təyinatlılarının daxil olduqları qruplar Kəlbəcər istiqamətində, düşmənin Murovdağda yerləşən müdafiə mövqelərinə doğru irəliləyiblər. Erməni işğalçılarının bəzi postları ələ keçirilib. Mürəkkəb dağlıq şəraitində Kamran öz avtomat silahı ilə təcavüzkarın atəş nöqtələrini susdurmaq üçün cəsurluq göstərib. Sentyabrın 30-da Murovdağdakı postlardan birində düşmənin minaatan mərmisinin partlayışı nəticəsində Kamran qapalı kəllə-beyin travması alıb. Şəmkir Rayon Mərkəzi Xəstəxanasına aparılıb, lakin ertəsi gün müalicədən imtina edərək ön cəbhəyə, silahdaşlarının yanına qayıdıb.

Sonra Cəbrayıl və Xocavənd rayonlarının ərazilərində döyüşüb. Bu istiqamətlərdə bir sıra yaşayış məntəqələri və yüksəkliklərin işğaldan azad edilməsi, habelə mövqelərimizin müdafiəsi üzrə döyüş tapşırıqlarını mətinliklə yerinə yetirib. Müharibənin od-alovundan keçərkən xüsusi təyinatlı bütün çətinliklərə və sarsıntılara baxmayaraq, öz iradəsini itirməyib, qələbəmizə inam onun ruh yüksəkliyini daha da artırıb.



Vətən müharibəsi iştirakçısı, 25033 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi kapitan Elnur Qasımov bildirdi ki, Kamranla 2019-cu ildən birgə xidmət ediblər. Onun hərbi xidmət zamanı nizam-intizamlı, andına sadiq, yüksək döyüş hazırlığına, müsbət fərdi keyfiyyətlərə malik hərbi qulluqçu kimi silahdaşlarının hörmətini qazandığını vurğuladı. 99713 saylı hərbi hissədən döyüş bölgəsinə gəldikləri ilk gündən Kamranın ön mövqelərdə olduğunu, heç bir təhlükədən çəkinmədən döyüşlərə atıldığını dedi. Zabit komandir olduğu qrupun tərkibində vuruşan Kamran və digər döyüşçülərin şücaət göstərərək onlarla erməni hərbçisini məhv etdiklərini söylədi.

Kapitan E.Qasımov məlumat verdi ki, Kamran 2020-ci il oktyabrın 16-da Xocavənd və Füzuli rayonları arasında yerləşən strateji əhəmiyyətli Ərgünəş yüksəkliyi uğrunda döyüş zamanı hər iki ayağından ağır yaralanıb. Döyüşçünü Elnur və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin hərbi qulluqçusu gizir Kamal Ağabalayev atəş altındakı təhlükəli ərazidən çıxararaq ilk yardım göstəriblər. Həmin hərbi hissənin digər hərbi qulluqçusu kiçik gizir Asif Bəbirli tərəfindən təxliyyə zamanı Kamrana tibbi yardım göstərilməsi davam etdirilib. Yaralanmış xüsusi təyinatlı Hadrutdakı tibb məntəqəsinə, oradan Horadizdə yerləşən hərbi qospitala çatdırılıb. Qospitalda cərrahiyyə əməliyyatından sonra Füzuli Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Həmin xəstəxanadan helikopterlə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Klinik Qospitalına təxliyyə edilib. O, burada, eləcə də Daxili Qoşunların Hərbi Qospitalında, bundan əlavə, paytaxtın bəzi mülki tibb müəssisələrində müalicə olunub.

Hərbi xidmətə yararsız olması səbəbindən Kamran 2021-ci il aprelin 19-da Daxili Qoşunların sıralarından istefaya buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 29.12.2020-ci il tarixli, 24.06.2021-ci il tarixli müvafiq sərəncamlarla, o cümlədən, müdafiə nazirinin imzaladığı 03.11.2020-ci il tarixli aidiyyəti əmrə əsasən, gizir K.Babayev "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" və "Şücaətə görə" medalları ilə təltif olunub.

Kamran evlidir, iki oğlu var, adları Rəhman və Yaqubdur. Yaqub müharibə sınağını yaşadığımız 2020-ci ildə dünyaya gəlib. Qazinin sözlərinə görə, ön cəbhədə olarkən arzulayıb ki, övladları qalib ölkədə böyüsünlər, yeni nəsil müharibə görməsin. Xalqımızın qələbə arzusunu gerçəyə çevirmək üçün hər bir döyüşçünün fədakarlıq göstərdiyini qeyd etdi. Sağlamlığını itirsə də, cəmiyyətdə gördüyü hörmət, doğmalarının mənəvi dəstəyi, qazi yoldaşlarının da onunla işlədikləri kollektiv nikbin ovqat yaradan amillərdir.

Hərbi Qənimətlər Parkındakı "Qarabağ Azərbaycandır!" stendi önündə mən, Kamran və qazi yoldaşı Əfqan Zaxmayev şəkil çəkdirdik. Bu şüarla döyüşə atılan, bizi Qarabağa qovuşduran Kamran kimi qeyrətli oğullar xalqımızın fəxri və gənclərə əsl örnəkdirlər.

**Yalçın Abbasov**

4 - 2_Layout 1 13.12.2021 11:42 Page 1



*“Əsgər”-29*

# HƏRBİ MƏTBUATIMIZIN LAYİQLİ ÖRNƏYİ OLAN QƏZET

“Əsgər” qəzetinin yaradılmasından 29 il ötür. 1992-ci ilin dekabr ayının 16-da ilk sayı işıq üzü görmüş “Əsgər” qəzeti ötən dövrdə layiqli yol keçib. Əminliklə qeyd etmək olar ki, “Əsgər” həm Daxili Qoşunların mətbuat orqanı kimi, həm də hərbi qəzet olaraq öz missiyasını uğurla yerinə yetirib. Qəzetin dərc edilmiş saylarının toplusu Daxili Qoşunların tarixidir. Bu tarixi yazmış və yazan redaksiyanın istər sabiq, istərsə də hazırkı heyətinin yaradıcılıq fəaliyyətində “Əsgər” hərbi jurnalistika məktəbi kimi silinməz iz qoyub.

Diqqətəlayiq faktdır ki, “Əsgər” qəzetinin səhifələrində hər iki Qarabağ müharibəsində Daxili Qoşunların keçdiyi şərəfli döyüş yolu haqqında maraqlı, tarixi dəyəri baxımından fərqlənən məqalələr dərc edilib. Həmin məqalələr bu mövzuda gələcək tədqiqatlar üçün mühüm informasiya mənbəyidir.

Şəhidlərimiz və qazilərimiz haqqında ən çox məqalə dərc edilən qəzetlərdən biri də “Əsgər”dir. Onların Vətən naminə fədakarlığı və hünər nümunələri qəzetdə dolğun işıqlandırılıb. Bununla yanaşı, redaksiya tərəfindən Daxili Qoşunların şəhid və qazi hərbi qulluqçuları barədə əhatəli elektron informasiya bazası yaradılıb.

Yaradıldığı vaxtdan bu günümüzədək “Əsgər” öz məramına, milli mətbuat ənənələrimizə, azərbaycançılıq ideologiyasına sadiq qalıb. Hərbi-vətənpərvərlik əqidəsinin aşılanmasına yönəlik məqalələrin yazılması redaksiyanın fəaliyyətində həmişə xüsusi yer tutub.



Hərbi qulluqçularımızın nümunəvi xidmətinin, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində əldə edilən nailiyyətlərin, qabaqcıl təcrübənin təbliğ olunmasına “Əsgər”in verdiyi töhfə əvəzsizdir.

Mətbuat tarixində elə qəzetlər olub ki, zaman axarında öz aktuallığını itirib, daimi oxucularını qoruyub saxlaya bilməyib, yenilənmək və inkişaf nöqteyi-nəzərdən potensialı yetməyib. Bizim qəzet zaman axarında öz aktuallığını, daimi oxucularını qoruyub saxlamağı bacarıb, ildən-ilə onun tərtibatı yenilənib, redaksiyanın yaradıcılıq fəaliyyəti inkişaf edib. Milli mətbuatımızın iş prinsiplərinə dair yeniliklər, ana dilimizin lüğətində olan dəyişikliklər “Əsgər”in məzmununda da öz əksini tapıb.

Hər bir qəzetin işıq üzü görməsi redaksiya kollektivinin birgə əməyinin nəticəsidir. “Əsgər” qəzetinin redaksiyasında həmişə öz peşəsinə qəlbən bağlı, vətənpərvər və əzmkar jurnalistlər fəaliyyət göstəriblər. Jurnalistlər nəsli dəyişsə də, “Əsgər”in məramına sadiqlik dəyişməz mənəvi meyar kimi qorunaraq saxlanılıb. Müxtəlif illərdə qəzetin redaktoru olmuş mərhumlar Elxan Mirzəyev və Təranə Məmmədova (uzun illər mətbuat xidmətinin rəisi vəzifəsində də xidmət edib) redaksiyada dərin ehtiramla xatırlanırlar, onların çoxşaxəli fəaliyyəti unudulmur.

Təqdirəlayiq haldır ki, “Əsgər” qəzeti redaksiyasında vaxtilə jurnalistika məktəbi keçmiş ayrı-ayrı müxbirlərin imzalarını bu gün ölkəmizin tanınmış qəzet və saytlarında görürük. Onların arasında kitab müəllifləri də var. Həmçinin, qəzetin hazırkı müxbirlərinin məqalələri dövri mətbuatda müntəzəm olaraq dərc edilir.

“Əsgər” qəzetinin redaksiyası qoşunların mətbuat xidmətinin tərkib hissəsidir. İctimaiyyəti məlumatlandırmaq, kütləvi informasiya vasitələri ilə əməkdaşlıq fəaliyyətimizin mühüm istiqamətləridir.

29 il ərzində keçilən yol asan olmayıb. Ötən illər ərzində “Əsgər” qoşunların həyatı ilə yaşayıb, onun üzləşdiyi sınaqlara və əldə etdiyi uğurlara şahidlik edib.

44 günlük Vətən müharibəsində qazandığımız böyük hərbi zəfər haqqında yazmaq, qalib ölkədə yaşamaq “Əsgər” qəzeti redaksiyası üçün də ruh yüksəkliyi və nikbin ovqat amilidir.

**Yalçın Abbasov**

*NÜMUNƏVİ XİDMƏT*

# PEŞƏ HAZIRLIĞINI DAİM TƏKMİLLƏŞDİRƏN SÜRÜCÜ

Daxili Qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında və qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində, avtomobil və zirehli texnikanın idarə edilməsində, şəxsi heyətin, habelə müxtəlif yüklərin vaxtlı-vaxtında çatdırılmasında peşəkar sürücülərin rolu böyükdür. 25033 saylı hərbi hissənin avtomobil və zirehli texnika xidmətinin rəisi mayor Aslan Şükürov bu işdə üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Musa Verdiyevin adını çəkdi.



Çavuş M.Verdiyev 1994-cü il iyulun 6-da Tovuz rayonunda anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı Tovuz rayonunda yerləşən tam orta məktəbdə alıb. 2011-ci ildə orta təhsilini tamamladıqdan sonra 2012-2014-cü illərdə Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ilin mart ayından Daxili Qoşunların 25033 saylı hərbi hissəsinin ayrı yerləşən patrul taborunda müddətdən artıq həqiqi hərbi xidmətini davam etdirir. Çavuş M.Verdiyev 2018-ci ilin may ayının 1-dən 25033 saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsinin yarımqrupunda sürücü-atıcı vəzifəsindədir. Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra edən hərbi qulluqçumuz həm hissə komandanlığının, həm də yoldaşlarının hörmətini qazanıb, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur. Funksional vəzifələrinə məsuliyyətlə yanaşaraq, qoyulan tapşırıqları vaxtında və düzgün icra etdiyinə görə dəfələrlə mükafatlandırılıb.

Çavuş M.Verdiyev qeyd etdi ki, ona təhkim olunmuş nəqliyyat vasitəsinin sazlığını hər gün yoxlayır, xırda nasazlıqlar aşkar olunduqda dərhal aradan qaldırılması üçün tədbirlər görür. Texnikanın xüsusiyyətlərinə yaxşı bələd olan hərbi qulluqçumuz təhlükəsizlik və yol hərəkəti qaydalarını bilir, onlara tam riayət edir.

Hərbi qulluqçumuz yol hərəkəti qaydalarının öyrədilməsi məqsədilə şəxsi heyətlə keçirilən məşğələlərdə fəallıq göstərir, qazandığı bilikləri hərbi xidmətə yeni qəbul olunmuş yoldaşlarına öyrətməyə çalışır.

**kapitan Xədicə Hacızadə**

# TİBB XİDMƏTİ VƏZİFƏLƏRİNİ VİCDANLA YERİNƏ YETİRİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.

25033 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidməti rəisi tibb xidməti mayoru Sadəddin Bəkirov şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.



Tibb xidməti mayoru S.Bəkirov bildirdi ki, gündəlik olaraq xidmət öz işini “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat”ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb xidmətinin hərbi qulluqçuları - tibb məntəqəsində feldşer gizir İqbal Şirvanov, sanitar-təlimatçı, dezinfektorlar baş çavuş Rəşad Sultanov, baş çavuş Hakim Muradlı qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər. Belə ki, gündəlik olaraq əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

Xidmət rəisi söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət qənaətbəxşdir. Şəxsi heyətin vaksinasiya prosesində tam şəkildə iştirakı təmin olunub.

Həmçinin, qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, təzyiqləri ölçülür, sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələrdə gündəlik olaraq, səhər və axşam saatlarında termometriya aparılır.

Bir sözlə, şəxsi heyətin sağlamlığı etibarlı əllərdədir.

**kapitan Xədicə Hacızadə**

# NARKOMANİYA

## BƏŞƏRİ BƏLADIR

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır. Narkotik insanın iradəsini iflic edir.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, yəni oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.



Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da məqsədyönlü işlər aparılır.

Lakin bu kimi tədbirlərin görülməsinə baxmayaraq, bəşəriyyət üçün təhlükə mənbəyinə çevrilmiş narkomanlığın dünyada geniş şəkildə yayılması respublikamızda yeniyetmə və gənclərin bu problemlə qarşılaşma riskini durmadan artırır.

Daxili Qoşunların sıralarında xidmət edən hərbi qulluqçuların böyük bir hissəsini gənclər - əsgərlər təşkil edir. Qoşunların sıralarında xidmət edən hər bir hərbi qulluqçunun Vətən qarşısında şərəfli borcunu məsuliyyətlə yerinə yetirməsi, eləcə də bəşər övladını məhvə aparan narkomaniya haqqında kifayət qədər biliklərə yiyələnməsi üçün müvafiq tədbirlər görülür.

Belə ki, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən, daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların tibb xidmətinin hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi-profilaktik işlər görülür.

# HƏRBİ QULLUQÇULARIN KEYFİYYƏTLİ VƏ KALORİLİ YEMƏKLƏRLƏ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Sağlam və keyfiyyətli qidalanma hərbi qulluqçuların səhhətinin möhkəmləndirilməsi üçün vacib olan amillərdəndir. Bu baxımdan deyə bilərik ki, şəxsi heyətin keyfiyyətli və kalorili yeməklərlə qidalanması son dərəcə vacibdir.

17071 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun komandanlığı da hərbi qulluqçuların keyfiyyətli və kalorili yeməklərlə qidalanmasını daima diqqət mərkəzində saxlayır. Tabor komandiri polkovnik-leytenant Bəxtiyar Behbudov bildirdi ki, xörəklərin keyfiyyəti tələblərə tam cavab verir. Bu sahədə görülən işlərdə yeməkxana rəisi baş çavuş Mahal Qasımovun əməyi xüsusilə təqdirəlayiqdir. Nümunəvi xidməti, bilik və bacarıqları ilə fərqlənən hərbi qulluqçumuz xidməti fəaliyyəti zamanı daxili işlər nazirinin, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmr və göstərişlərindən irəli gələn vəzifələrini məsuliyyətlə yerinə yetirir.



Baş çavuş M.Qasımov şəxsi heyətin vaxtlı-vaxtında keyfiyyətli ərzaqla təmin olunmasına, ərzaqların qorunub saxlanılmasına, yeməkxanada sanitar-gigiyenik qaydalara ciddi əməl edilməsinə, burada mövcud olan soyuducu və digər texniki avadanlıqların istismarına nəzarət edir.

Şəxsi heyətin qidalanmasının müvafiq rəhbər sənədlərin tələbləri əsasında aparıldığını söyləyən yeməkxana rəisi qida rasionu barədə məlumat verdi. Bildirdi ki, hərbi qulluqçular əsasən milli təamlarla qidalanırlar. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə qış mövsümü ilə əlaqədar, qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. Şəxsi heyətin qidalanması həftəlik bölgü cədvəlinə əsasən aparılır. Qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır, suyun keyfiyyəti üzərində müntəzəm olaraq tibbi nəzarət həyata keçirilir.

Qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı aşpaz əsgərlərlə bərabər, işçilərin əməyindən də istifadə olunur. İşçi aşpazlardan Kişbər Xəlilova, Maya Səlimova, Brilyant Salamova üzərlərinə düşən vəzifələri məsuliyyətlə icra edirlər.

**baş leytenant Nigar Ağayeva**

# HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR-*

### Türkiyədə lazer silahlı PUA-nın sınaqları davam edir

Türkiyə istehsalı olan dünyada ilk lazer silahı ilə təchiz edilmiş “Eren” PUA-sı 100, 300 və 500 metr məsafədən uğurla atış sınaqlarını yerinə yetirib.

Ordu.az xəbər verir ki, “Eren” TÜBİTAK və ASİSGUARD müdafiə şirkətləri tərəfindən Təhlükəsizlik Baş İdarəsinin kriminalistika şöbəsinin koordinasiyası ilə hazırlanıb və lazer silahlarından istifadə edərək uzaqdan partlayıcı elementləri zərərsizləşdirə bilir. PUA ilk dəfə olaraq “Dövlət Dəstəyi və Təşviq Proqramları haqqında məlumatlandırma günləri” çərçivəsində “ATO Congresium” Sərgi Mərkəzində təqdim edilib.



# Allah rəhmət eləsin

Ali Hərbi Məktəbin komandanlığı mayor Anar Alıyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000